*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 1* *ISSN 2663-4414*
*Səhifə: 57-64* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.1.57*

# ŞƏMSƏDDİN SİVASİNİN ƏSƏRLƏRİNİN MƏZMUNU

**İnci Qasımlı**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. Azərbaycan.
E-mail: iqasml@mail.ru

**Xülasə.** Şəmsəddin Sivasi (-1598) Xəlvətiliyin Şəmsiyyə qolunun qurucusudur**.** Azərbaycanda "Miratül-əxlaq" (B-5724), "Mənazilül-arifin" (M-309), "Gülşən-abad" (B-6040; B-5914) adlı 3 əsərinin 4 əlyazması mühafizə olunmaqdadır. XVI yüzilliyin zəngin yaradıcılığa malik məşhur türk yazarlarından sayılan Əbus-Səna Şəmsəddin Əhməd bin Əbül Bərəkat Muhəmməd bin Arif Həsən Şəmsəddin Sivasi kimi tanınmışdır. Peçəvinin "Tarix"ində, Nəzmi Məhəmmədin "Hadayat əl-ixvan"ında əsmər olduğuna görə ona "Qara Şəmsəddin", "Qara Şəmsi" də deyildiyi göstərilir. Şeirlərini "Şəmsi" təxəllüsü ilə yazmışdır.
Türk mədəniyyətinə bir çox əsər qazandırmış olan Şəmsəddin Sivasinin əsərlərinin bir hissəsi çap olunmuşdur. Niyyətimiz qalan əsərlərin üzərində də bir an öncə çalışmaların artırılması və onların mədəniyyətimizə qazandırılması yönündədir. Xəlvətiyyə təriqətinin Şəmsiyyə şöbəsini qurmuş olan Şəmsəddin Sivasi bir çox tələbə yetişdirmişdir. Ərəb və fars dillərini o dillərdə əsər yaza biləcək dərəcədə yaxşı bilən müəllif əsərlərində ağır və çətin anlaşılan cümlələrdən çox istifadə etməmişdir. Dini-təsəvvüfi ədəbiyyatın XVI əsrdə önəmli ədiblərindən olan Şəmsəddin Sivasinin məlum olan əsərləri həm mənzum, həm də mənsurdur.
Şəmsəddin Sivasinin şöhrəti Sivasdan Osmanlı sərhədlərini də aşmış, ünü çox yayılmışdır. Səmərqənd, Buxara kimi elm mərkəzlərində də adından bəhs edilirdi. Həyatı boyunca hər kəsdən hörmət, itaət və məhəbbət görmüşdür. Zamanın alim və şairləri arasında yaxşı mövqeyi və hörməti var idi. Dörd Osmanlı sultanı – Qanuni Sultan Süleyman, II Səlim, II Murat və III Mehmet dövrlərində yaşamış, hamısından da hörmət və məhəbbət görmüşdür.
**Açar sözlər:** Şəmsəddin Sivasi, türkçə əsərləri, ərəbcə əsərləri, farsca əsərləri, mənzum və mənsur əsərləri

**Məqalə tarixçəsi:** göndərilib – 14.06.2023; qəbul edilib – 22.06.2023

# CONTENT OF THE WORKS BY SHAMSADDIN SIVASI

**Inji Gasimli**
Doctor of Philosophy in Philology
Institute of Oriental Studies named after Z.M.Bunyadov of ANAS. Azerbaijan.
E-mail: iqasml@mail.ru

**Abstract.** Shamsaddin Sivasi (-1598) is the founder of the Khalwati of Shamsiya. 4 manuscripts of 3 works "Miratu-l-ahlaq" (B-5724), "Menazilu-l-arifin" (M-309), "Gülşen-i-abad" (B-6040; B-5914) are protected in Azerbaijan. Abus-Sena Shamsaddin Ahmed bin Abul Berekat Muhammad bin Arif Hasan Shamsaddin Sivasi is known as one of the famous Turkish writers of the 16th century. In Pechavi's "History", it is shown that Nazmi Muhammad was mentioned in the book "Gara Shamsaddin" and "Gara Shams", because he was a martyr in Hadayat al-ixwan. He wrote his poems in the pseudonym "Shamsi".

Most of the works by Shamsaddin Sivasi, which gave many works to Turkish culture, have been published. Our goal is to accelerate the work and to convey them to our culture as soon as possible. Shamsaddin Sivasi, who set up the Shamsiyya division of the Khalwatiyya sect, raised many students. The author who proved that he could write in Arabic and Persian did not use hard and difficult concepts in his writings. Shamsaddin Sivasi, one of the most important writers of the sixteenth century, has many works of religious conservative literature.
Shamsaddin Sivasi's fame has passed borders of Ottomans and widely spread. He was talked about in such scientific centres as Samarkand, Bukhara as well. He saw respect, obedience and love from everybody along his life. He had a good position and respect among scholars and poets of that period. He has lived in periods of four sultans – Suleiman the Magnificent (d. 1566), Selim II (d. 1574), Murat II (d. 1595) and Mehmet III (d. 1603) and has seen respect and love from all of them.
**Keywords:** Shamsaddin Sivasi, Turkish works, Arabic works, Persian works, verse and prosaic works

**Article history:** received − 14.06.2023; accepted − 22.06.2023

## Giriş / *Introduction*

Şəmsəddin Sivasi indiki Tokat elinə bağlı Zilə qəsəbəsində dünyaya gəlmişdir. Rənginin əsmər olduğu səbəbindən Qara Şəms və Qara Şəmsəddin deyilən şairin doğum tarixi haqqında fərqli fikirlər vardır. Hocazadə Hilmi "Ziyarəti-evliya" adlı əsərində doğum tarixi olaraq 928/1521-1522 ilini göstərsə də, Xəlvəti şeyxlərinə dair mötəbər mənbə olan "Hidayətül-İxvan" kitabında Nazmi Muhamməd onun h.926/m.1520 ilində doğulduğunu bildirməkdədir. Abdülbaki Gölpınarlı İslam Ensklopediyasındakı Şəmsiyə bölümündə Nakdı-Hatırırnı h.1003/m.1594 ilində yazdığını və əsərdə yetmiş yaşını keçdiyini bildirdiyini nəzərə alsaq, onun h.926/m.1520 ilində doğulmuş ola biləcəyi fikrini qəbul etməkdədir. Şəmsəddin Sivasinin həyatı və əsərləri haqqında Şeyx Rəcəb Sivasinin "Nəcmül-Xuda", Şeyx Nəzmi Muhəmmədin "Hədiyyətül-İxvan", Mustəqimzadə Süleyman Saadəddin Əfəndinin "Hulasatül-Hədiyyə" və daha bir çox kitabda məlumatlar yer almadadır. Şəmsəddin Sivasinin nəslində çox sayda alim, tanınmış şəxslər də vardır.

## Əsas hissə / *Main Part*

Təriqət şeyxi olması və daha çox öz fikirlərini xalq kütlələrinə yaymaq istəməsindən dolayı, o, çox sayda dini əsərlər yazmışdır. Onun məlum olan bir çox mənzum və mənsur əsərləri vardır. Farsca və ərəbcədən tərcümələr etdiyi də bilinməkdədir.

Şeirlərində təsəvvüfi və dini fikirlərini anlatmağa çalışan Şəmsinin kəlimə xəzinəsinin çoxunu ərəbcə və farsca kəlimələr təşkil etməkdədir. Bu kəlimələrdən bəziləri, xüsusilə qafiyə yaratmaq üçün istifadə olunanlar "Osmanlıca-Türkcə" lüğətdə yoxdur. Ancaq öz dillərinə aid lüğətlər vasitəsilə anlaşıla bilər.

Tamamilə sadə bir türkçədən istifadə etdiyini deyə bilməyəcəyimiz Şəmsi ərəbcə, farsca kəlimələr istifadə edərkən olduqca bacarıqlıdır. Onun bu dilini son dərəcə təmtəraqlı, bəzəkli bir dil də saya bilmərik, çünki şeirlərinin bəzilərində son dərəcə axıcı bir dil istifadə etməsinə baxmayaraq, bəzilərində dili o qədər ağırdır ki, anlamaq çox çətindir. Bunu o dövrün mədəniyyəti və dünyagörüşünə, ya da başqa bir sözlə, Şəmsinin bağlı olduğu təriqətlə əlaqəli olduğunu demək olar.

Azərbaycanda AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda "Miratül-əxlaq" (B-5724), "Mənazilül-arifin" (M-309), "Gülşən-abad" (B-6040; B-5914) adlı 3 əsərinin 4 əlyazması mühafizə olunmaqdadır. Şəmsəddin Sivasi və onun AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan əlyazmaları haqqında Azərbaycanda ilk dəfə prof. A. Musayeva "Elmi əsərlər" jurnalının 2016-cı il 2(3) sayında geniş məlumat vermişdir (Musayeva: 2016, s.14).

**Şəmsəddin Sivasinin əsərləri və onların qısa məzmunu**

Şəmsəddin Sivasi, dini məzmunun əsas olduğu 23 əsər qələmə almışdır. Bunların on biri mənzum, on ikisi mənsurdur. Mənzum əsərlərinin demək olar ki, hamısı türkçədir. Mənsur əsərlərinin 2-si ərəbcə, 10-u türkcədir.

**Mənzum əsərləri**

**1. Divan:** Şəmsəddin Sivasinin şeirlərinin toplandığı bir əsərdir. "Divani-arifanə", "Divani-ilahiyyat" adları ilə də tanınır. Divan haqqında indiyə qədər iki araşdırma işi vardır. Bunlardan birincisi Abuzər Biçər tərəfindən bakalavr səviyyəsində hazırlanmış diplom işidir (Biçer: 1977, s.395). Divanın iki nüsxəsini gördüyünü bildirən müəllif bunlardan Süleymaniyyə Kitabxanası Lala İsmayıl Əfəndi nüsxəsini əsas götürərək araşdırmasını hazırlamışdır. İkinci araşdırma Rəcəb Toparlı tərəfindən aparılmışdır. Müəllifin İstanbul Üniversiteti Mərkəz Kitabxanası nüsxəsinin əsas götürüldüyünü bildirərək apardığı araşdırma 1984-cü ildə nəşr olunmuşdur. Əsərin ikinci nəşri 2015-ci ildə olmuşdur (Toparlı: 2015, s.184, 20, 617).

İlahiyyat qəzəlxadır biri də,
Biri də tərcümədir Şərhi-Bürdə (Arslan: 2015, s.617).

**2. Süleymaniyyə:** Türk ədəbiyyatında Qanuni Sultan Süleymanın hakimiyyəti dövründə baş verən hadisələrin təsvir edildiyi və Hz. Süleymanın Səbə məleykəsi Bilqeyis ilə aralarında danışılan qissə başda olmaqla, Süleyman Peyğəmbərin həyatından bəhs edən mənzum və mənsur əsərlərə "Süleymaniyyə" adı verilmişdir. Şəmsəddin Sivasinin "Süleymaniyyə"si Hz. Süleyman ilə bağlıdır. Əsas qaynağı "Quran"dakı Qissə olan əsər 1556-cı ildə Zilədə qələmə alınmışdır. Məsnəvi nəzm şəklində yazılan əsərin beyt sayı 1684-dür (Sivasi, Süleymaniye Kütüphanesi: Nu.483). Hüseyn Akkaya tərəfindən 1988-ci ildə magistr diplom işi olaraq üzərində tədqiqat aparılmış (Akkaya:1988, 215) və 2015-ci ildə əsərin ikinci nəşri çap olunmuşdur (19, s.48).

Süleymaniyyədir üçüncü mənzum,
Ən əvvəl nəzmim oldur ola məlum. (Arslan: 2015, s.614).

**3. İbrəti-nüma:** 1576-ci ildə qələmə alınan əsər 4890 beyt olub müəllifin həcmli məsnəvilərindən biridir. Fəridəddin Əttarın "İlahinamə" adlı əsərindən seçilən 101 hekayənin türkcəyə tərcümə olunub sonlarına "İbrət" başlığı altında qissədən hissə xüsusiyyətindəki nəsihətlərin əlavə olunması şəklində hazırlanmışdır (Sivasi: Bayezid Devlet Kütüphanesi, Nu. 3315). Əsər üzərində 1 magistr diplom işi (Enginoğlu: 1997) , 1 doktorluq tədqiqat işi vardır (Çöm: 2007, s.718). 2015-ci ildə əsərin ikinci nəşri çap olunmuşdur (Çöm: 2015, s.718).

Onun beşincisi İbrət-nümadır,
Süluk əhlinə xoş nəzmi-ətadır (Arslan: 2015, s.615).

**4. Mövlud:** Hz. Məhəmmədin həyatının vacibli səhifələrinin anladıldığı bu əsər 1580-ci ildə qələmə alınmışdır. 1217 beytdən ibarətdir (Sivasi: Millet Kütüphanesi, Nu.1363). Bu əsər Şəmsəddin Sivasinin Türk ədəbiyyatında Süleyman Çələbi və Həmdullah Həmdi ilə bərabər, üç məşhur mövlud şairi olaraq yadda qalmasına səbəb olmuşdur. Əsər 1984-cü ildə magistr diplom işi olaraq olaraq üzərində tədqiqat aparılmış və 2015-ci ildə nəşr olunmuşdur (Aksoy: 2015, s.48).

Buna samin durur Mövlud kitabı
İşarətlə dedim ol müstətabı (Arslan: 2015, s.615).

**5. Gülşən-abad:** 1578-ci ildə qələmə alına əsər Şəmsəddin Sivasinin diqqət çəkən əsərlərində biridir (Sivasi: Konya İzzet Koyunoğlu, Nu.13715). Əsərin əsas mövzusu seyri-sulukdur. Bu seyr on çiçək vasitəsi ilə anladılmışdır. Çiçəklər arasında gül şeyx, digər çiçəklər isə müridləri təmsil edir. 557 beytdən ibarət olan əsərin 2015-ci ildə 2-ci nəşri çap olunmuşdur (Aksoy: 2015, s.96).

Buna sadis düşüpdür Gülşən-abad
Olupdur sufiyan içün Gülşən abad (Arslan: 2015, s.615).

**7. Miratül-əxlaq:** 1588-ci ildə qələmə alınan əsər bir nəsihətnamədir. 4520 beytdən ibarət olan əsər müəllifin həcmli əsərlərindən biridir. Ümumi 20 hissədən ibarət olan əsərin ilk on bölümündə əxlaqi-həmidə, digər on bölümündə əvsafi-zəmimə anladılmışdır (Sivasi: Süleymaniye Kütüphanesi, Nu.2835). 2003-cü ildə doktorluq tədqiqat işi olaraq üzərində çalışılan əsərin 2-ci nəşri 2015-ci ildə nəşr olunmuşdur (Toker: 2015, s.606).

Birisi də onun Miratul-əxlaq
Olubdur salikə əltafı Həllaq (Arslan: 2015, s.616).

**8. Mənaqibi-İmami-Əzəm:** Hənəfi məzhəbinin qurucusu olan İmami Əzəm Əbu Hənifənin həyandan bəhs edən əsər 1593-cü ildə qələmə alınmışdır. Əsər 2913 beytdən ibarət olub, on bab, bir xətimədən ibarətdir (Sivasi: Süleymaniye Kütüphanesi, Nu.2). 1997-ci ildə magistr diplom işi olaraq üzərində tədqiqat aparılmış və 2015-ci ildə nəşr olunmuşdur (Arslan: 2015, s.617).

Yigirminci düşüpdür bu Mənaqib
Olupdur Bu Hanîf içün məvahib (Arslan: 2015, s.617).

**9. İrşadül-Avam:** 1566-cı ildə yazılan əsər müəllifin kiçik məsnəvilərindəndir. 255 beytdən ibarət olan əsər bir nəsihətnamədir (Sivasi: Süleymaniye Kütüphanesi, Nu. 23). Əsər 2015-ci ildə nəşr olunmuşdur (Akkaya: 2015, s.80).

Ona dördüncü İrşadul-Avamdır
Çü möhtacdır olar çün kəl-həvamdır (Arslan: 2015, s.614).

**10. Umdətül-Hüccac (Mənasiki-Hac):** 1574-cü ildə qələmə alınan əsər müəllifin kiçik məsnəvilərindəndir. Əsər tamamilə Həccnamə olub, Həcc fərzini yerinə yetirmək istəyənlərə məlumat vermək məqsədi ilə qələmə alınmışdır (Sivasi: Süleymaniye Kütüphanesi, Nu.2). Əsər 777 beytdən ibarətdir (Süer: 2015, s.975).

Biri dəxi Mənasik həccə mənsub
Odur hüccaca umdə dəxi mərgûb (Arslan: 2015, s.616).

**11. Tərcüməi-Qəsidəyi-Bürdə:** İmam Büsurinin məşhur Qəsidəyi-Bürdəsinin mənzum tərcüməsidir. 1578-ci ildə yazılmışdır (Sivasi: Süleymaniye Kütüphanesi, Nu.388). 161 beytdən ibarət olan əsər İrşadül-Avam ilə birlikdə nəşr olunmuşdur (Akkaya: 2015, s.80).

İlahiyyat qəzəllxadır biri də
Biri də tərcümədir Şərhi Bürdə (Arslan: 2015, s.617).

**Mənsur Türkcə əsərləri**

**1. Mənaqibi-Çahari Yari-Güzin**: 1581-ci ildə yazılan əsər Huləfai Rəşidinin və əhli beytin və bəzi səhabələrin mənqibələrini anladan həcmli bir əsərdir (Sivasi: Süleymaniye Kütüphanesi, Nu.2). Əsər bütöv şəkildə və hissə-hissə olaraq da nəşr olunmuşdur (Sivasi: 2013, s.192).

Biri dəxi Mənaqibi Çar-yara
Əcəb məddah olupdur ol hıyara (Arslan: 2015, s.616).

**2. Mənazilül-arifin:** 1585-ci ildə yazılmışdır. Dörd hissədən ibarətdir. Allâh, nəfs, dünya və axirət mövzularını anlatan təsavvüfî bir əsərdir (Sivasi: Süleymaniye Kütüphanesi, Nu.11). Əsər haqqında tədqiqat aparılmış, 1 magistr diplom vardır (Göztepe: 1996, s.133).

Bu cəmaa aşir olmuşdur Mənazil,
Odur ariflər üçün xoş mərahil (Arslan: 2015, s.616).

**3. Umdətül-ədib fit-Taallümü vət-Tədib:** Əsər 1577-ci ildə yazılmışdır. Mənbələrdə Risâləi Bəyânı Zəbânı Fârisî, Emsiləi Fârisiyə, Kavâidi Fârisî kimi adlarla da bilinməkdədir. Həcmsiz, kiçik bir əsərdir. Fars dilindəki bəzi ədat və hərflərin vəzifələrini izah edən bir dilbilgisi kitabıdır. Risalə müəyyən səviyyədə farsca bilənlər üçün hazırlanmışdır. Əsərdə farscanın bütün qrammatik qayda-

larına toxunulmamış ancaq əlavə olunduğu kəlimənin mənasını və vəzifəsini dəyişdirən hərflərdən və ədatlardan bəhs edilmişdir (Sivasi: Süleymaniye Kütüphanesi, Nu. 5359).

Biri də Umdə deyər-əlfazı Fürsə
Olupdur müxtəsərcə ahzı həbsə (Arslan: 2015, s.616).

**4. Əmiri ilahi və Hüccəti ilahi:** Müəllifin Sivasda qələmə aldığı əsərlərindəndir. Simvolik və alleqorik bir əsərdir. Ruh adında bir mərdi nəfis ana qarnında müxtəlif mərhələlərdən keçdikdən sonra "Əhsəni-təqvim" hırkasını geyərək "Zəhmət qalası" deyilən dünyaya gəlir. Dəlalət qəsəbəsinin su başı İblis, Ruhun "Nəfsi-əmmarə" adındakı qara köləsinə "Ağıl" adındakı kətxudasına haqq surətində görünərək doğru olmayan işlərlə və boş arzularla onları tora salır. "Tevfiq" adında xeyir sahibi kişi onların bu halını görəndə "Əmri-bil-maarif nəhyi-anıl-münkər" yolu ilə "Ağıl" adındakı kətxudaya nəsihət etmyə başlayar (Sivasi: Süleymaniye Kütüphanesi, Nu.11).

Biri dəxii onun Əmri İlahi
Yanında Hüccəti dəxi güvahi (Arslan: 2015, s.617).

**5. Əs-Safayih fî-Tərcəmətil-Ləvayih:** 1577-ci ildə qələmə alınan əsər Molla Caminin "Ləvayih" adlı farsca əsərinin tərcüməsidir (Sivasi: Süleymaniye Kütüphanesi, Nu.11)

Yeddinci elmi təvhiddən Safayih
Olupdur tərcümə bəhri Ləvayih (Arslan: 2015, s.615).

**6. Şərhu Qəzəliyyatis-Sultan Muradus-Salis:** 1580-ci ildə yazılmışdır. Əsərdə Sultan III Murada aid 16 qəzəl vardır. Bunlardan dördü ərəbcə, altısı farsca, altısı türkcədir. Bu qəzəllərdən 14-cü qəzəl şərh edilməmiş, 15-ci qəzəl isə iki dəfə şərh edilmişdir. Əsərdə sultanın şərh edilən 15 qəzəli ilə bərabər, Haşimi Əmir Osmanın (ö.1594) qəzəllərinə şərh edilən bəzi qəzəllərə yazılan 7 nəzirəsi vardır. Əsərin məlum olan tək nüsxəsi vardır (Sivasi: Süleymaniye Kütüphanesi, Nu. 282/2).

Biri Şərhi qəzəlxayı Murad Xan
Ki oldur zübdəi Hakanı Osman (Arslan: 2015, s.617).

**7. Nəqdül-Hatır:** 1595-ci ildə yazılan əsər səkkiz bölümdən ibarətdir. "Kəhf" surəsində anladılan Hz.Musa ilə Hz.Xızır arasında olan qissənin təfsiridir (Sivasi: Topkapı Sarayı Müzesi Kütüphanesi, Nu. EH 1308). Əsər haqqında yazılmış bir magistr diplom işi vardır (Yıldırım: 1995, s.173).
**8. Şərhi Tərcüməi Əcvibə Ali bin Əbi Talib li-Əsiləti Küməyl bin Ziyad:** Daləbi Yəmani ilə Küməyl bin Ziyadın suallarına Hz.Əlinin təsəvvüfi və söz baxımından verdiyi cavablardan ibarət qısa bir əsərdir (Sivasi: Süleymaniye Kütüphanesi, Nu. 2280/1). Əsərin yazılış tarixi bilinmir (Akkaya: 2015, s.47-58).
**9. Mənaqibi Abdülvəhhabı Qazi:** Sivasınn mənəvi liderlərindən olan və Hz. Məhəmmədin bayraqdarı olduğu deyilən Abdülvəhhabı Qazi mənaqibinin anladıldığı qısa bir risalədir (Sivasi: Süleymaniye Kütüphanesi, Nu.2). 1593-cü ildə qələmə alınmışdır (Yıldız: 2013, s.5-10).
**10. Dairətül- Üsul:** Bu əsər müəllifin itmiş olan əsəridir. Əsərin varlığı Mənaqibi İmami Əzəm adlı əsərinin sonlarında keçən bu beytdən bilinməkdədir.

Biri də Dairə elmi usula
Kifayət edər əbvau fusulə (Arslan: 2015, s.617).

**Mənsur ərəbcə əsərləri**
**1. Hallül-Maakidil-Qavaid:** Ərəbcə nəhv qaydalarına dair bir əsərdir. İbni Hişamın əl-İrab an-Qavaiidil-İrab adlı əsərinin şərhidir. 1560-cı ildə qələmə alınan əsər müəllifin ilk əsəridir (Sivasi: Amasya Bayezid Kütüphanesi, Nu. BA 1409)

Ən əvvəl dediyim Hallül-Maakıd
Ki nəhv içrə odur şərhül-qavaid (Arslan: 2015, s.613).

**2. Zübdətül-Əsrar fî Şərhi Muhtasaril-Mənar**: Həsan əl Hələbi, Hafızıddin ən-Nəsəfînin fiqh üsulüna dair Mənarül-Ənvar adlı əsərinə Müxtəsərul-Ənvar adlı bir müxtəsərə yazmışdır. Şəmsəddîn Sivasî də bu müxtəsərə bir şərh yazmışdır. (Sivasi: Amasya Bayezid Kütüphanesi, Nu.:1045). 1566-cı ildə qələmə alınan əsər magistr diplom işi olaraq işlənmişdir (Takcı: 1999, s.288).

İkinci Zübdətül-Əsrarı vafî
Mənaru Müxtəsər çün şərhi Şafî (Arslan: 2015, s.614).

## Nəticə / *Conclusion*

Sivasilər elm, hikmət və təsəvvüf sahələrində qələmə aldıqları əsərləri ilə etdikləri moizələrlə xalqa doğru yol göstərən şəxslər yetişdirən qədim bir ailədir. Bu qədim ailənin üzvləri Əhməd Yəsəvilərdən, Yunus Əmrələrdən, Mövlanələrdən davam edib gələn müqəddəs vəzifəni layiqilə yerinə yetirməyə çalışıblar. Bu ailənin ən məşhur, ən adlı-sanlı üzvü, şübhəsiz ki, Şəmsəddin Sivasidir. Türk təsəvvüf tarixində məşhur üç Şəmsdən (Şəmsi Təbrizi, Ağ Şəmsəddin, Şəmsəddin Sivasi) biri olan Şəmsəddin Sivasi Osmanlı Dövlətinin qızıl dövrü olan XVI əsrdə yaşamış bir şəxsiyyətdir. Bir təriqət şeyxi olması ilə bərabər, qələmə aldığı əsərlərlə də çoxşaxəli bir alim olduğunu göstərmişdir. Dövlət mədrəsələrində müəllimlik edə biləcək bir elmə sahib olmasına baxmayaraq, o, kiçik bir qəsəbəyə gələrək səksən ilə yaxın ömrünü Haqq üçün xalqa həsr etmişdir.

Məqalədə dövrünün tanınmış alimi, müəllimi olan Şəmsəddin Sivasinin hazırda müxtəlif kitabxanalarda olan əsərləri haqqında qısa, dəqiq və sistemli şəkildə məlumat verilir, onların bəhs etdikləri mövzular göstərilir.

## Ədəbiyyat / *References*

Musayeva, A. (2016) Türkiyəli sufi təriqət şeyxlərinin Azərbaycanda üzə çıxarılmış əlyazmaları. “Elmi əsərlər” № 2(3).
Sivasi, Ş. (1578). Mənazilül-arifin. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. ƏYİ. M-309.
Sivasi, Ş. (1588). Miratül-əxlaq. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu., ƏYİ. B-5724.
Sivasi, Ş. (1558). Gülşən-abad. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.,ƏYİ. B-6040.
Sivasi, Ş. (1558). Gülşən-abad. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. ƏYİ. B-5914.
Biçer, A. (1977). Dîvân-ı Şeyh Ahmed Şemse’d-din Sivâsî, Ankara Üniversitesi Dil ve Tarih Coğrafya Fakültesi Türk Dili ve Edebiyâtı Bölümü, Yayımlanmamış Lisans Tezi, Ankara.
Yıldız, A. (2013). “Şemseddîn Sivâsî’nin Abdülvehhâb Gâzî Menâkıb’ı”, Cumhuriyet Üniversitesi İlahiyat Fakültesi Dergisi, C. XVII, S.2 s. 5-10, Sivas. Toker B.(2015). Mir‘âtü’l-Ahlâk (Şemseddîn Sivâsî Külliyâtı 6), Sivas Belediyesi Yayınları, Sivas.
Enginoğlu, B. (1997). Şemseddîn Sivâsî’nin İbret-nümâ Mesnevîsi İnceleme-Edisyon Kritikli Metin) Yayımlanmamış Yüksek Lisans Tezi, Cumhuriyet Üniversitesi Sosyal Bilimler Enstitüsü, Sivas.
Çöm, E. (2007). 16. Yüzyıl Ahlâkî Mesnevîleri ve Şemseddîn-i Sîvâsî’nin İbret-nümâ Adlı Mesnevîsi (İnceleme-Metin), Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü, Konya.
Çöm, E. (2015). İbret-nümâ, (Şemseddîn Sivâsî Külliyâtı 10), Sivas Belediyesi Yayınları, Sivas.
Süer, F.R. (2015). Umdetü’l-Hüccâc (Şemseddîn Sivâsî Külliyâtı 5), Sivas Belediyesi Yayınları, Sivas.
Akkaya, H. (2015). Kaside-i Bürde ve İrşâdü’l-Avâm (Şemseddîn Sivâsî Külliyâtı 9), Sivas Belediyesi Yayınları, Sivas.
Akkaya, H. (1988). Şemseddîn Sivâsî’nin Süleymâniyyesi, Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü, İstanbul.
Akkaya, H. (2015). Süleymâniyye Şemseddîn Sivâsî Külliyâtı 8, Sivas Belediyesi Yayınları, Sivas.
Akkaya, H. (2003). “Şemseddîn Sîvâsî’nin Terceme-i Ecvibe-i Alî bin Ebî Tâlib İsimli Eseri”, Journal of Turkish Studies, 27/1, s.47-58, Harvard.

Akkaya, H. (2015). Kaside-i Bürde ve İrşâdü'l-Avâm (Şemseddîn Sivâsî Külliyâtı 9, Sivas Belediyesi Yayınları, Sivas.
Aksoy, H. (2015). Gülşen-âbâd (Şemseddîn Sivâsî Külliyâtı 2), Sivas Belediyesi Yayınları, Sivas.
Aksoy, H. (2015). Mevlîd (Şemseddîn Sivâsî Külliyâtı 3, Sivas Belediyesi Yayınları, Sivas.
Arslan, M. (2015). Menâkıb-ı İmâm-ı Azam, (Şemseddîn Sivâsî Külliyâtı 7, Sivas Belediyesi Yayınları, Sivas, s.617.
Toparlı, R. (2015). Dîvân, Şemseddîn Sivâsî Külliyâtı 1, Sivas Belediyesi Yayınları, Sivas 2015. 39 Mehmet Arslan, Menâkıb-ı İmâm-ı Azam, Şemseddîn Sivâsî Külliyâtı 7, Sivas Belediyesi Yayınları, Sivas, s.617.
Sivâsî, Ş. Süleymâniyye, Süleymâniye Kütüphânesi, Pertev Paşa Bölümü, Nu.:483.
Sivâsî, Ş. İbret-nümâ, Bayezid Devlet Kütüphânesi, Nu.: 3315.
Sivasi, Ş. Mevlid, Millet Kütüphanesi, Ali Emiri Bölümü, Nu.: 1363.
Sivâsî, Ş. Gülşen-âbâd, Konya İzzet Koyunoğlu Kütüphânesi, Nu.: 13715.
Sivâsî, Ş. Miratü'l-Ahlak, Süleymâniye Kütüphânesi, Fatih Bölümü, Nu.: 2835.
Sivâsî, Ş. Menâkıb-ı İmâm-ı Azam, Süleymâniye Kütüphânesi, H.Şemsi F. Güneren Bölümü, Nu.:2.
Sivâsî, Ş. İrşâdü'l-Avâm, Süleymâniye Kütüphânesi, H.Şemsi F. Güneren Bölümü, Nu.: 23.
Sivâsî, Ş. Umdetü'l-Hüccâc, Süleymâniye Kütüphânesi, H.Şemsi F. Güneren Bölümü, Nu.:2.
Sivâsî, Ş. Terceme-i Kaside-i Bürde, Süleymâniye Kütüphânesi, Hamidiye Bölümü, Nu.:388.
Sivâsî, Ş. Menâkıb-ı Çehâr-ı Yâr-ı Güzîn, Süleymâniye Kütüphânesi, H.Şemsi F. Güneren Bölümü Nu.:2.
Sivâsî, Ş.A. (2013) Hazret-i Ömer, Ailem Yayınları, İstanbul.
Sivâsî, Ş. Menâzilü'l-Ârifîn, Süleymâniye Kütüphânesi, H.Şemsi F. Güneren Bölümü, Nu.:11.
Sivâsî, Ş. Umdetü'l-Edib fi't-Ta'allümü ve't-Te'dib, Süleymâniye Kütüphânesi, Fatih Bölümü Nu.: 5359.
Sivâsî, Ş. Emr-i İlâhi ve Hüccet-i İlâhî, Süleymâniye Kütüphânesi, H.Şemsi F. Güneren Bölümü Nu.:11.
Sivâsî, Ş. Es-Safâyıh fî-Tercemeti'l-Levâyıh, Süleymâniye Kütüphânesi, H.Şemsi F. Güneren Bölümü, Nu.:11.
Sivâsî, Ş. Şerhu Gazeliyyâti's-Sultân Murâdu's-Sâlis, Süleymâniye Kütüphânesi Amcâzâde Hüseyin Paşa Bölümü, Nu.: 282/2.
Sivâsî, Ş. Nakdü'l-Hatır, Topkapı Sarayı Müzesi Kütüphânesi, Nu.: EH 1308.
Sivâsî, Ş. Şerh-i Terceme-i Ecvibe Alî bin Ebî Tâlib li-Es'ileti Kümeyl bin Ziyâd, Süleymâniye Kütüphânesi Hacı Mahmud Efendi Bölümü Nu.: 2280/1.
Sivâsî, Ş. Menâkıb-ı Abdülvehhâbı Gâzî, Süleymâniye Kütüphânesi, H.Şemsi F. Güneren Bölümü, Nu.:2.
Sivâsî, Ş. Hallü'l-Ma'akıdi'l-Kava'id, Amasya Bayezid Kütüphânesi, Nu.: BA 1409.
Sivâsî, Ş. Zübdetü'l-Esrâr fî Şerhi Muhtasari'l-Menâr, Amasya Bayezid Kütüphânesi, Nu.: 1045.
Takcı, Y. (1999). Şemseddîn Sivâsî'nin Zübdetü'l-Esrar fî Şerhi Muhtasari'l-Menâr Adlı Eserinin Tahlil ve Tahkiki, Cumhuriyet Üniversitesi Sosyal Bilimler Enstitüsü Yayımlanmamış Yüksek Lisans Tezi, Sivas.
Göztepe, Y. (1996). Şemseddîn Ahmed es-Sivâsî'nin Menazilü'l-Ârifin Adlı Eserinin Sadeleştirilerek Marifetullâh Konularının Değerlendirilmesi, Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü, Kayseri.
Yıldırım, Y. (1995). Şemseddîn Sivâsî ve Nakdü'l-Hatır Adlı Eserinin Tahlili, Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü, Kayseri.

# ТЕМЫ ПРОИЗВЕДЕНИЙ ШАМСЕДДИНА СИВАСИ

**Инджи Гасымлы**
Доктор философии по филологии
Институт востоковедения имени З.М.Буниядова НАНА. Азербайджан.
E-mail: iqasml@mail.ru

**Резюме.** Шамседдин Сиваси (-1598) является основателем шамсийской ветви Халвати. В Азербайджане сохранились 4 рукописи трёх его произведений «Миратю-л-ахлак» (Б-5724), «Манзилу-л-арифин» (М-309), «Гюльшан-абад» (Б-6040; Б-5914). Абу Сана Шамседдин Ахмад бин Абдул Баракат Мухаммад бин Ариф Хасан Шамседдин Сиваси считается одним из известных турецких писателей 16 века. Он был известен как Шамседдин Сиваси. В произведениях «Тарих» Печави и «Хадаят аль-Ихван» Назми Мухаммад показывают, что его называли «чёрный Шамседдин» или «чёрный Шамси» из-за его тёмной кожи. Свои стихи он писал под псевдонимом «Шамси».

Часть произведений Шамседдина Сиваси, внёсшего большой вклад в турецкую культуру, была опубликована. Мы намерены усилить свою работу над остальной частью работ и донести их до наших исследователей. Шамседдин Сиваси, основавший шамсийскую ветвь Халвати, имел много последователей. Шамседдин Сиваси владел в совершенстве арабским языком и фарси, писал свои произведения на этих языках. Он один из известных авторов религиозной и суфийской литературы 16 века в стиле манзум и мансум.

Слава Шамседдина Сиваса широко распространилась за пределы Османской империи. Его имя упоминалось в таких научных центрах как Самарканд и Бухара. Он пользовался хорошим положением и уважением среди учёных и поэтов своего времени. Он жил во времена четырёх османских султанов – Султан Сулеймана Великолепного II, Селима II, Мурада II и Мехмеда III и пользовался уважением и любовью от всех них.

**Ключевые слова:** Шамседдин Сиваси, произведения на турецком языке, произведения на арабском языке, произведения на персидском языке, стихотворные и прозаические произведения